*15 iyun Milli Qurtuluş Günüdür*

# Tarixi qayıdış

1993-cü ilin müdhiş iyun günlərindən 20 il keçir. Bu gün o böhranlı, ağrılı-acılı, faciəli günləri ürək ağrısı ilə xatırlayırıq. Həmin ilin may-iyun aylarında Azərbaycan öz tarixinin ağır günlərini yaşayırdı. Bir tərəfdən Dağlıq Qarabağ müharibəsində böyük itkilər, hərbi uğursuzluqlar, digər tərəfdən ölkə daxilində dövlət rəhbərliyindəki çəkişmələr Azərbaycanı uçuruma aparırdı. Belə bir ağır və mürəkkəb şəraitdə Azəbaycan hökuməti xalq arasındakı dayaqlarını itirirdi. İyunun 4-də Surət Hüseynovun rəhbərliyi altında Gəncə şəhərindəki ordu hissələri qiyam qaldırmışdı. O dövrkü hakimiyyətin şəriştəsizliyi və iradəsizliyi ucbatından bu qiyam getdikcə daha geniş miqyasda yayılaraq vətəndaş müharibəsi xarakteri almışdı.

Belə böhranlı və ağır vəziyyətdə xalq çıxış yolunu yenə də müdrik rəhbərinin—ulu öndər Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Xalqın təkidli tələbi və istəyi ilə 1993-cü ilin iyununda Bakıya qayıdan Heydər Əliyev yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Azərbaycanın başı üstünü almış vətəndaş müharibəsi alovunu söndürmüş, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsinə, ictimai-siyasi sabitliyin tam bərpasına, cəbhə bölgəsində atəşkəs rejiminə nail olmuş, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasını irəli sürmüşdür. Əgər bu həlledici mərhələdə çağdaş tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş əlamətdar hadisə baş verməsəydi, xalqın istəyi və tələbi ilə ümumilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı gercəkləşməsəydi, indi biz müstəqil, qüdrətli, hər zaman tərəqqi edən, yeniləşən və demokratikləşən Azərbaycan dövlətindən danışa bilməzdik. Bu Qayıdış Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bu, əsrlərin sınağından keçə-keçə min bir əziyyətlə, amma dönmədən məqsədinə doğru addımlayan bir millətin özünəqayıdışı idi. Bu, dilimizin, milli-mənəvi dəyərlərimizin, unudulmuş, yaddan çıxmış bir çox həqiqətin, eyni zamanda bizə öz real gücümüzü, mənəvi bütövlüyümüzü dərk etməyimizin qayıdışı idi. Məhz bununla da Azərbaycan özünün müstəqillik tarixinin daha şərəfli, daha əzəmətli mərhələsinə qədəm qoydu.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin ölkənin ali qanunvericilik orqanına sədr seçilməsi sözün əsil mənasında siyasi qayıdış idi. Onun xilaskar missiyası ilə gəlişi dövlətçilik tariximizə daha bir şanlı gün yazdı, Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Qurtuluş yeni, yüksək intibaha açılan qapı kimi tariximizi şərəfləndirdi. Xalq bu qapıdan keçərək özünə gəldi. Dahi öndərin müdrikliyi, uzaqgörənliyi, qətiyyəti və dövlətçilik istedadı sayəsində Azərbaycan tezliklə təlatümlərdən, sarsıntılardan uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi.

Heydər Əliyev özünün fəaliyyəti, tarixin gedişinə güclü təsir göstərən əzəməti və qüdrəti ilə 1993-cü ilin iyununda bir daha sübuta yetirdi ki, dövründən asılı olmayaraq tarixin həqiqi yaradıcısı məhz nəhəng şəxsiyyətlərdir. Onun tarixi qayıdışı obyektiv zərurət, sosial sifariş, xalqın istək və arzularının ifadəsidir.

Artıq 1993-cü ildən 20 il keçir. Aradan keçən bu illər yalnız sözügedən qayıdışa bəslənən ümidlərin özünü doğrultması ilə yadda qalmadı, həm də Azərbaycanın gələcək inkişafının etibarlı bünövrəsinin təməli qoyuldu. Heydər Əliyev tarixi qayıdışı ilə xilaskarlıq missiyasını ləyaqətlə yerinə yetirdi. Ulu öndərin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasət strategiyası bu gün onun layiqli varisi—Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Cənab İlham Əliyevin siyasi xəttinin bir neçə aspektinə diqqət yetirməklə, onun Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə nə kimi töhfələr verdiyini görmək olar. İlk növbədə Prezident İlham Əliyev ulu öndərin başladığı yeni neft strategiyasını uğurla davam etdirdi. Bakı—Tbilisi—Ceyhan və Bakı—Tbilisi—Ərzurum neft və qaz kəmərlərinin inşasının başa çatdırılması ilə İlham Əliyev Azərbaycanın bölgədəki lider mövqeyini daha da möhkəmləndirdi.

**Aslan CƏLİLOV.**

# «Gənc xilasedici və yanğınsöndürən» yarışı

Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı və Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş «Gənc xilasedici və yanğınsöndürən» yarışının 4 iyun 2013-cü il tarixdə FHN-nin Şimal-qərb Regional Mərkəzində şimal-qərb zonası üzrə final mərhələsi keçirilmişdir. Yarışın keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilərə şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin aşılanması, gənc nəslə hərbi-vətənpərvərlik ruhunun aşılanması və məktəblilər arasında sağlam həyat tərzinin təbliğidir. Yarış orta və ümumtəhsil müəssisələrinin şagirdləri arasında fövqəladə hallara hazırlıq sahəsində fiziki və intellektual müsabiqələrdən ibarət olmuşdur.

Mərkəzin inzibati ərazisində Ümummilli lider Heydər Əliyevin büstü önünə tər güllər qoyularaq xatirəsi ehtiramla yad edildikdən sonra yarışın açılış mərasimində FHN Şimal-qərb Regional Mərkəzinin rəisi, mayor Sadiq Bəkirli, FHN Fövqəladə Halların Xəbərdar Edilməsi Baş İdarəsinin Fövqəladə halların monitorinqi və xəbərdar edilməsi idarəsinin rəisi, polkovnik-leytenant Məhbubə Mustafayeva, Qəbələ rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov çıxış edərək tədbirin mahiyyətindən danışaraq iştirakçılara uğurlar arzulamışlar. Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında Dövlət Bayrağı ucaldildiqdan sonra komandaların tribuna önündən təntənəli keçidi ilə yarışa start verilmişdir.



Yarışda birincilik uğrunda beş mərhələdə, «Manelər zolağı», «Kombinəedilmiş yanğın estafeti», «Axtarış-xilasetmə işi», «Komandaların təqdimatı» və «Gənc ekspertlər» üzrə Qəbələ, İsmayıllı, Şamaxı, Ağsu, Qobustan, Oğuz, Şəki, Qax və Balakən rayonlarının komandaları mübarizə aparmışdılar.

Gərgin mübarizə və yüksək idman əhval-ruhiyyəsi ilə başa çatan yarışda münsiflər heyətinin qərarı ilə ümumi nəticəyə görə «Gənc xilasedici və yanğınsöndürən» yarışının zona birinciliyində İsmayıllı şəhər 6 saylı tam orta məktəbin komandası 1-ci, Qəbələ şəhər 4 saylı tam orta məktəbin komandası 2-ci, Şamaxı rayonunun Mədrəsə qəsəbə tam orta məktəbin komandası 3-cü yerləri tutaraq yarışın kuboklarını qazanmışlar. Yarışda fərqlənmiş komandalar kubok və fəxri fərmanlarla təltif olunmuşlar. I və II yeri tutan İsmayıllı və Qəbələ rayonlarının komandaları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə keçiriləcək «Gənc xilasedici və yanğınsöndürən» ümumrespublika yarışlarında iştirak etmək hüququ əldə etmişlər.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Körfəz Əməkdaşlıq Şurasının (KƏŞ) baş katibi Əbdüllətif bin Rəşid Əl-Zəyaninin başçılıq etdiyi nümayəndə heyəti Qəbələyə gəlmişdir

(Əvvəli 2-ci səhifədə).

Hazırda inşa edilən dağ-xizək idmanı bazasının bilavasitə yaxınlığında yerləşən «Qafqaz Resort» otel kompleksi üç otel binasından, SPA mərkəzindən, əyləncə parkından ibarət olmaqla yay istirahəti üçün bütün imkanlara malikdir. Belə şəraitdə «Qafqaz Resort» otel kompleksində qış istirahət məkanının yaradılması, yəni otelin yaxınlığında dağ-xizək idman növləri üçün kompleksin inşa edilməsi bütün fəsillərdə ekskursiya və digər fəal istirahət imkanlarının mövcudluğu ilə yanaşı, otel yaxınlığında həm də qış idman növləri ilə məşğul olmağa imkan verəcəkdir.

Qəbələ rayonu ilə tanışlıqdan məmnunluqlarını ifadə edən nümayəndə heyəti Qəbələ rayonunun füsünkar təbiəti olduğunu vurğulamış, bu diyarın geniş turizm potensialı olduğunu qeyd etmişdir.

**Zahir KƏRİMOV.**